*İlham Əliyev:*

# Xalq-iqtidar birliyi, milli həmrəylik bu gün ən yüksək səviyyədədir

## BEYNƏLXALQ MALİYYƏ QURUMLARININ HESABATLARINDA, SORĞU MƏRKƏZLƏRİNİN RƏYLƏRİNDƏ QAZANDIĞI XOŞBƏXT ÖLKƏ ADINI DAVAMLI UĞURLARI İLƏ GÜNBƏGÜN MÖHKƏMLƏNDİRƏN AZƏRBAYCANI QARŞIDAKI İLLƏRDƏ İNKİŞAF ETMİŞ ÖLKƏLƏR SIRASINDA GÖRMƏK İSTƏYİMİZ DƏ REALLIQDIR



**"Bizim apardığımız xarici siyasət dünya birliyi tərəfindən yüksək qiymətləndirilir, rəğbətlə qarşılanır. Çünki biz müstəqil siyasət aparırıq. Bizim hər bir məsələ ilə bağlı prinsipial mövqeyimiz vardır. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir. Bizə qarşı olan təzyiqlər, hədə-qorxular bizim siyasətimizə zərrə qədər təsir etmir və etməyəcək. Biz heç kimdən və heç nədən qorxmuruq. Bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir və ölkəmizin beynəlxalq nüfuzunu qaldırmaqdır."**

Dövlətimizin başçısı İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində ötən illərin uğurlarına söykənərək bu fikri də böyük qətiyyətlə bildirmişdir ki, Azərbaycan inamla inkişaf edəcək. Biz inkişaf yolu ilə, müstəqillik yolu ilə gedirik, müstəqil siyasət aparırıq: "Azərbaycan xalqının maraqları mənim üçün hər şeydən üstündür və mən bundan sonra da bu maraqları müdafiə edəcəyəm. Mən xalqın dəstəyini hiss edərək bu işləri daha da inamla aparıram."

Düzgün qurulan siyasətin ölkəni inkişafa, tərəqqiyə apardığını ölkəmizin bugünkü reallıqlarında aydın görürük. 24 illik müstəqillik tarixinə malik olan Azərbaycan hər dövrün tələblərini, çağırışlarını yüksək səviyyədə yerinə yetirərək, biri-birindən əhəmiyyətli uğurlara imza atır. Bu fikir əsaslı şəkildə qeyd edilir ki, arxada qalan il hər zaman əvvəlki ildən daha möhtəşəm uğurlarla tarixə yazılır. 2015-ci ilə qısa baxış etməklə bunun təsdiqini görmüş oluruq. "2015-ci il sınaq ili olmuşdur" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, ötən ildə həm dünyada, həm bölgədə qanlı toqquşmalar, müharibələr, ayrı-seçkilik və anlaşılmazlıq özünü qabarıq şəkildə büruzə vermişdir. Azərbaycanda isə bütün işlər normal məcrada davam etmiş, xalqımızın təhlükəsizlik şəraitində yaşaması təmin edilmiş, milli birlik, həmrəylik hökm sürmüşdür. Biz diqqəti xüsusən gələcək iqtisadi inkişafımıza yönəltməliyik: "Bütün sahələrdə tam şəffaflıq təmin edilməlidir ki, dövlət büdcəmizin gəlirləri ilə bağlı heç bir problem olmasın. Biz elə işləməliyik ki, neftin qiymətindən asılılığı aradan götürək. Mən bunu dəfələrlə bəyan etmişəm və son illərdə qeyri-neft sektorunun inkişafı, bax, bu məqsədi güdür. Əgər biz bu islahatları aparmasaydıq, bu gün çox ağır vəziyyətdə ola bilərdik."

Ulu öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi dövlətin siyasətinin əsasını təşkil edir. Zəngin təbii resurslara malik olan ölkəmiz bu ehtiyatlardan səmərəli istifadə edərək iqtisadi qüdrətini artırmaqla yanaşı, maliyyə imkanlarını da genişləndirir. Bu gün Azərbaycanın təşəbbüsləri gerçəkliyə çevirən ölkə kimi tanınmasında və nüfuz qazanmasında bu amilin rolu inkaredilməzdir. Ulu öndər Heydər Əliyevin 1999-cu ildə böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondu neft gəlirlərinin idarə olunmasında şəffaflıq prinsipinə yüksək səviyyədə əməl edərək, mühüm sosial-iqtisadi layihələrin icrasını sürətləndirir. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, Azərbaycan böyük maliyyə vəsaiti tələb edən istənilən layihəni həyata keçirmək iqtidarındadır. Yaxın zamanlarda istifadəyə verilməsi nəzərdə tutulan, Avropaya açılan üçüncü qapı kimi dəyərləndirilən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də Dövlət Neft Fondunun vəsaitləri hesabına gerçəkləşir. 2016-cı ilin iqtisadi cəhətdən asan il olmayacağını diqqətə çatdıran Prezident İlham Əliyev eyni zamanda bu əminliyi ifadə edir ki, cari ildə Azərbaycan iqtisadiyyatı inkişaf edəcək, heç bir sosial proqramın icrası ilə bağlı problem olmayacaq.

Bu gün Azərbaycanın Cənubi Qafqazın parlayan ulduzu, dünyanın 10 xoşbəxt ölkəsindən biri kimi qiymətləndirilməsi də gələcəyə hesablanmış inkişaf konsepsiyasına əsaslanır. Beynəlxalq əhəmiyyətli tədbirlərdə inkişafın Azərbaycan modelinin mövcudluğunun qeyd olunması və bunun öyrənilməsinin vacibliyi barədə ürəkaçan fikirlərin səsləndirilməsi təbii ki, ən böyük uğurumuzdur. Azərbaycanın müxtəlif sahələri əhatə edən beynəlxalq tədbirlər üçün əsas məkan seçilməsində də uğurlarımız əhəmiyyətli rol oynayır. Dövlətimizin başçısı İlham Əliyevin hər zaman bəyan etdiyi kimi, hər gün, hər həftə ölkəmizdə keçirilən bu kimi tədbirlər, forumlar Azərbaycan haqqında dolğun məlumatların əldə olunmasında mühüm rol oynayır. Ötən ilin mühüm hadisələrindən bəhs edərkən ilk Avropa Oyunlarına ev sahibliyimiz xüsusi qeyd edilir. 50 ölkədən 6 min idmançının qatıldığı bu tədbir bir daha ölkəmizin malik olduğu imkanların, beynəlxalq nüfuzunun təqdimatında əhəmiyyətli rol oynadı. Daim irəliyə baxan, yeni-yeni hədəflərə çatmaq üçün səylər göstərən bir dövlətin davamlı inkişafı qaçılmazdır. Dövlətimizin başçısı İlham Əliyev bildirir ki, güclü dövlət bizim ümummilli fikrimiz, ideyamızdır ki, bu təməlin əsasını da insana qayğı təşkil edir. Dünyanın nüfuzlu maliyyə qurumlarının hesabatlarında, sorğu mərkəzlərinin apardığı sorğuların nəticələrində Azərbaycanın hər zaman yüksək göstərici əldə etməsi onu deməyə əsas verir ki, inkişaf, tərəqqi dövlətimizin siyasətində əsas yer tutmaqla yanaşı, bu istiqamətdə əhəmiyyətli addımlar atılmış və bunun nəticəsi olaraq ölkəmizə beynəlxalq baxış yüksək səviyyədədir.

Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun ölkəmizlə bağlı proqnozlarında, eyni zamanda Ümumdünya İqtisadi Forumunun hesabatlarında, ABŞ-ın dünya üzrə insan resurslarını öyrənən "Gallup İnternational" kimi sorğu mərkəzlərinin rəylərində birinciliyini qoruyan Azərbaycan daim uğurlu islahatları ilə əldə etdiyi bu yeri daha da möhkəmləndirir. Xatırlasaq, ölkədə keçirilən hər bir seçki prosesindən öncə ABŞ-ın "Gallup" təşkilatı ölkədə vətəndaşların hakimiyyətin həyata keçirdiyi siyasətə, eyni zamanda dünya dövlətlərinin həmin ölkə ilə əlaqədar münasibətini öyrənmək üçün sorğular təşkil edir. Ötən prezident seçkiləri ərəfəsində belə bir sorğu "Qlobal sevinc və kədər barometri" üzrə keçirilmişdir. Sorğuda 50-dən çox ölkə, 60 mindən artıq insan iştirak etmişdir. Bu sayda ölkənin təmsilçiləri arasında aparılan sorğu əsasında ölkəmizin 10 xoşbəxt ölkə sırasında olması təbii ki, böyük uğur idi. Bu uğurlar yeni-yeni hədəflərə yol açaraq, onların gerçəkləşdirilməsini bir zərurətə çevirir. Artıq qarşıdakı on ildə Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyirik. Beynəlxalq maliyyə qurumlarının hesabatları, sorğu mərkəzlərinin rəyləri eyni zamanda bu gerçəkliyi də ortaya qoyur ki, Azərbaycan reallıqları dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və dəyərləndirilir. Bu günlərdə adıçəkilən sorğu mərkəzi apardığı növbəti sorğunun nəticələrini açıqladı. Azərbaycan dünyanın xoşbəxt ölkələri sırasında dördüncü yerdədir. Statistik rəqəmlərdən bir daha məlum olur ki, dünya dövlətlərini narahat edən qlobal maliyyə böhranına baxmayaraq milli iqtisadiyyatı sürətli, dinamik və davamlı inkişaf yolu ilə irəliləyən Azərbaycan aparılan məqsədyönlü islahatlar nəticəsində qazandığı liderlik adını qoruyub saxlayır.

Son 12 ilin uğurları cənab İlham Əliyevin Prezident kimi fəaliyyətə başladığı gündən atdığı hər addımın verdiyi vədinə sadiqliyindən irəli gəldiyini təsdiqləyir. 2003-cü ildə xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq Prezident seçilən cənab İlham Əliyev "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm" söyləyərək, bu inamı da ifadə etmişdir ki, Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Öz fəaliyyətində reallığa və praqmatizmə əsaslanan cənab İlham Əliyev bununla respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı aparılan islahatların keyfiyyətcə yeni mərhələ üzrə inkişafını həllivacib məsələ kimi diqqətə çatdırdı. Dünyada baş verən proseslərin milli mənafelər baxımından qiymətləndirilməsi, iqtisadiyyatda baş verən müsbət meyillərin artması bütün sahələrdə özünü büruzə verir.

Azərbaycanın dinamik və sabit inkişafı üçün müstəsna əhəmiyyəti olan neft siyasətinin incəliklərinə dərindən bələd olan dövlətimizin başçısı İlham Əliyev əsası Ulu Öndər tərəfindən qoyulan neft strategiyasının uğurla davam etdirilməsi nəticəsində yanacaq-energetika kompleksinin səmərəliliyinin artırılması mexanizminin təkmilləşdirilməsi sahəsində daha təsirli tədbirlər görür. "Neft gələcək nəsillər üçün də xidmət etməlidir" söyləyən cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, hər birimizin gələcək fəaliyyəti bütün sahələri əhatə edən uğurlu nəticələrdən asılıdır. Dövlətimizin başçısı ilk gündən taleyüklü məsələlərin həlli üçün hökumətə ciddi tapşırıq və tövsiyələrini bildirir. Nazirlər Kabinetinin hər bir iclası görülən işlərin təhlili, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir.

Regional inkişaf proqramlarının uğurlu icrası yeni-yeni iş yerlərinin açılması deməkdir ki, bu da işsizlik və məşğulluq problemlərinin həllinə öz müsbət təsirini göstərir. Bölgələrdə yaşayan əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, infrastruktur layihələrinin həyata keçirilməsi, investisiya qoyuluşunun artırılması, ən başlıcası isə sahibkarlığı inkişaf etdirməklə qeyri-neft sektorunun genişləndirilməsinin təminatına yönəldilmiş təxirəsalınmaz vəzifələr Dövlət Proqramlarında əsas prinsip kimi qarşıya qoyulur. Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan dünya iqtisadiyyatına inamla inteqrasiya edən dövlət kimi beynəlxalq ictimaiyyətin marağını cəlb edir. 2004-cü ildə əsas vəzifə kimi qarşıya qoyulan qeyri-neft sektorunun, sahibkarlığın inkişafı təmin edilir. Bu məqsədlə yaradılan "Aqrolizinq" ASC və Sahibkarlığa Kömək Milli Fondu tərəfindən iş adamlarına ayrılan güzəştli kreditlərin həcmi və icarə verilən kənd təsərrüfatı maşınlarının sayı artırılır. Əlavə imtiyazlar müəyyənləşdirilir. Nəticədə ÜDM-də 85 faiz payı olan özəl bölmənin inkişafı təmin edilir. Ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına tələbatının ödənilməsi, fermer təsərrüfatlarının genişləndirilməsi üçün dövlətin dəstəyi gücləndirilir.

⇨ **Davamı 5-ci səhifədə**

*İlham Əliyev:*

# Xalq-iqtidar birliyi, milli həmrəylik bu gün ən yüksək səviyyədədir

BEYNƏLXALQ MALİYYƏ QURUMLARININ HESABATLARINDA, SORĞU MƏRKƏZLƏRİNİN RƏYLƏRİNDƏ QAZANDIĞI XOŞBƏXT ÖLKƏ ADINI DAVAMLI UĞURLARI İLƏ GÜNBƏGÜN MÖHKƏMLƏNDİRƏN AZƏRBAYCANI QARŞIDAKI İLLƏRDƏ İNKİŞAF ETMİŞ ÖLKƏLƏR SIRASINDA GÖRMƏK İSTƏYİMİZ DƏ REALLIQDIR



Əvvəli 2-ci səhifədə

Daxili mənbələrdən və təbii resurslardan, kadr potensialından istifadənin təmin edilməsi ilə aqrar sahənin inkişafı 10 dəfə çox yüksəlib. Qeyd edək ki, dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə ötən il "Kənd təsərrüfatı" ili elan edilmişdi. Cənab İlham Əliyev ərzaq təhlükəsizliyinin hər bir ölkə üçün böyük önəm daşıdığını diqqətə çatdırır: "Ona görə kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Bu, sosial, iqtisadi sahədir, qeyri-neft sektorunun inkişafı üçün dəstəkdir. Üstünlüyümüz ondan ibarətdir ki, bizim ətrafımızda böyük bazarlar var. O bazarlara bizim ənənəvi çıxışlarımız var. Azərbaycan məhsulları o bazarlarda tanınır və o bazarlarda Azərbaycan məhsulunun artımını gözləyirlər... Biz niyə Avropa bazarlarına çıxmayaq?! Biz nə vaxtsa Dünya Ticarət Təşkilatına üzv olacağıq. Biz buna əlbəttə ki, hazır olanda. Hazır olmaq üçün gərək ixrac potensialımız çoxşaxəli olsun." Qeyri-neft sektorunun ən prioritet sahələrindən biri kimi aqrar sahənin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir ki, Dünya Bankının məlumatına əsasən, dünya miqyasında kənd təsərrüfatı sahəsi üzrə artım 31,8 faiz, Azərbaycanda isə 48,9 faizdir.

Dövlətimizin başçısı onu da bildirir ki, son illərdə əksər kənd təsərrüfatı məhsullarının istehsal həcminin artım tempi ölkədə kənd əhalisinin sayının artım tempini dəfələrlə üstələmişdir. Cənab İlham Əliyev çıxışlarında bu reallığı da bildirir ki, ərzaq təhlükəsizliyi hər bir ölkə üçün enerji təhlükəsizliyi qədər önəmlidir:" "Əlbəttə, Azərbaycanın bəzi ərzaq məhsullarını xarici bazarlardan idxal etməsinə baxmayaraq biz çalışmalıyıq ki, öz daxili istehsalımızı maksimum artıraq, fövqəladə hallardan özümüzü qoruyaq... Yəni, özümüzü təmin etmək üçün daxili bazarların daxili resurslar hesabına təmin edilməsi prosesi davam etdiriləcəkdir." Daim vurğulandığı kimi, hər ilin konkret bir sahəni əhatə etməsi qarşıya qoyulan məqsədlərə, ən əsası ölkənin hərtərəfli inkişafına, xalqın rifah halının daha da yaxşılaşmasına yüksək səviyyədə nail olmağa stimul verir. Dövlətimizin başçısı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bir daha bildirmişdir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz güclü dövlət qururuq, güclü iqtisadiyyat qururuq, eyni zamanda, insanların rifahı bizim üçün həmişə prioritet məsələ olubdur və olacaqdır." Hər zaman ölkə reallıqlarının içərisində olan xalq özünə diqqət və qayğının öndə dayandığının şahididir. Cənab İlham Əliyev 2003-cü ildə andiçmə mərasimində bildirmişdir ki, iqtisadi göstəricilər yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında özünü büruzə verməlidir. 2009-cu ildə keçirilən ümumxalq səsverməsi yolu ilə Konstitusiyaya edilən əlavə və dəyişikliklər sırasında "Dövlətin ali məqsədi" maddəsinə edilən əlavə dövlət siyasətində insan amilinə verilən dəyəri bir daha təsdiqləmişdir. Həmin əlavəyə görə, dövlətin ali məqsədi insan hüquq və azadlıqlarının qorunması ilə yanaşı, yüksək rifah şəraitində yaşamalarını təmin etməkdir. Bu kimi addımlar ölkədə xalq-iqtidar birliyini daha da möhkəmləndirir, hər bir vətəndaşın Prezidenti olan cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin gələcəyinə inamı artırır. Xalq-iqtidar birilyinin möhkəm olduğu bir ölkədə vətəndaşların özünü daha xoşbəxt hiss etməsi inkaredilməzdir. "Gallup" analitik şirkətinin məlum sorğusunun nəticələri də bu kimi reallıqlara işıq salır. Dünyanın 68 ölkəsindən 66 mindən çox respondentin qatıldığı sorğuda faiz dərəcələrinə diqqət yetirmək kifayətdir ki, hər bir ölkənin əhalisini özünü hansı səviyyədə xoşbəxt hiss etdiyini görək. Qeyd etdiyimiz kimi, Azərbaycan 81 faizlə xoşbəxt ölkələr sırasında 4-cü yerdə qərarlaşıb. Dünyanın xoşbəxt ölkələri sırasında addımlayan Azərbaycanı inkişaf etmiş ölkələr arasında görmək istəyimiz artıq reallıqdır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***